*Arif BUZOVNALI*

# Çün "əhsəni-təqvim" idi



Digər böyük sufi şairlərində olduğu kimi, Nəsimidə də əxlaqi mövzular müxtəlif sistem və bölgülərin bir hissəsi olaraq işlənmişdir. Nəsimiyə qədər əxlaq haqqında fikir və mülahizələr ümumi elmi anlayışdan daha çox, hər hansı təriqət qanunları və ya təkyə qaydaları kimi yayılmışdı. Təriqətdaxili yaşam konsepti bəzən baxış və tərz olaraq dəyişirdi, bəzən də qəsdən seçilmək, fərqlənmək üçün dəyişdirilirdi. Təriqət mənsubu olmayan şairlər belə tam riayət etməsələr də müxtəlif sufi düşüncələrini şeirə gətirir, çağdaş dəbə uyaraq istəmədən, bilmədən hər hansı ideyanın təbliğatçısına çevrilirdilər. Böyük bir ideoloji planın bir hissəsi olduğunu bilməyənlərin "gül-bülbül" məhəbbətini təsəvvüf istilahları ilə bəzəməsi Nəsimi dövrü kimi çətin bir dövrün aydın düşüncəli mürşidlərinin "özünüqoruma" mexanizmi idi. Bu qorumanın içində həm Quranın, həm İslami dəyərlərin, həm də min illik törənin mühafizəsi əsas məsələ idi. Təbii ki Nəsimi də bu xaosun içindəki səliqə-sahmanı görə bilənlərdən idi və canı bahasına da olsa, prinsiplərindən əl götürməyəcəkdi. Bu prinsiplər nədən ibarət idi?

Öncə onu deməliyik ki, "əxlaq normaları" bu və ya digər mühitdə baş verən hadisələrə görə, onların dərinliyinə, müddətinə, vəhşiliyinin dərəcəsinə görə dəyişir. Mürşidlər yerinə görə gah təğyiri-libas olub xalqın içində gəzir, gah qılınclı-qalxanlı kiçik ordu ilə qorunur, gah "qeyb"ə çəkilərək müəyyən müddəti hər kəsdən gizli yaşayırdılar. Mürşidin yaşam tərzinə görə qayda və davranışlar tənzimlənir, siyasi gedişlər də işin içinə daxil olarsa, günlük, saatlıq belə qanunlar ortaya çıxırdı. Qanun təriqət başçısının iki dodağının arasında böyüyüb kiçilə bilirdi, o qanun ki insanlar arasında sürətlə yayılır və "zülmə etiraz" geyimində olduğu üçün gizli və möhtərəm tutulurdu. Amma bütün bunlara baxmayaraq "əxlaq"ın iki mənbəyi və istinad nöqtəsi var idi: Quran və hədislər. Bəzən ruhani dairələrin Allahın kitabına riayətdən uzaq olmaları, bəzən "Allah-Allah" deyənlərin kirli işlərə bulaşması, bəzən əxlaqı tələb edənlərin əxlaqsızlığı və sair bir xeyli sadalamadığımız ağla gələn səbəblər ucbatından İlahi qanunların yeni dil və uslubla təfsiri insanlar üçün daha cazib və daha inandırıcı idi. Eyni fikirlərin bədii görkəmə bürünməsi və xırçın bir dillə səslənməsi o dövrün "demokratiya"sı idi desək, yanılmarıq. Zərif və həssas kəlmələrlə sərt və bir qədər də mücərrəd fikirlər demək üçün həm də Nəsimi

olmaq lazım idi. Bu, Qurandan daha gözəl söz demək idimi? Nəsimi və onun kimi bir çox ustad Qurandan gətirdikləri sitatları Allahın dediyindən daha kamil deməyə çalışırdılarmı?

Nəsimini yalnız "hürufi" kimi qiymətləndirmək, onun əsərlərini bu prizmadan baxaraq dəyərləndirmək düzgün deyil. "Şəriət"dən "təriqət"ə keçidin Nəsimidə ənənəvi İslama qarşı kin yaratdığını düşünənlər bir məsələni unudurlar: "təriqət"in yaşam və inkişaf bazası "şəriət"dir. Əlifbanı öyrənən tələbə ikinci dəfə əlifba öyrənmir, amma qalan ömrünü bütün öyrənəcəklərində ondan istifadə edir. Nəsiminin yaradıcılığında ilkin hərəkət nöqtəsi "şəriət"dir. Bu əsasın üzərində qurduğu düşüncə zəncirinin necə adlanmağından asılı olmalayaraq şairin Qurana söykəndiyini, Qurandan güc aldığını və Quranla dərk olunduğunu danmaq faciədir. Hürufilik əslində daha modern bir dil və ya üslubdur, zamanın nəbzini tutmaq, insanları yeni mənəvi vərdişlərlə ələ almaq, onlara bir qədər anlaşılmaz, mücərrəd gözəllik və səadəti daddırmaq və bu yarımgizlilik fonunda ehtirasları hədəfə yönəltməkdir. Hürufilik onunla paralel və ona qədər fəaliyyət göstərmiş digər təriqətlərin bazasında yaranmış, dövrün ictimai tələbatını ödəyə bilmək üçün düşünülmüş siyasi hərəkatdır. Bu hərəkat tərkibində Şərq insanına, müsəlmana təsir edə biləcək hər şey var. Fikir versək, görərik ki, "hürufizm" digər təriqətlərdən fərqli olaraq məsələnin ibadət və ayinlər tərəfində radikal deyil, əksinə, digərlərinə görə daha liberaldır. Şeiri, musiqini və digər növ incəsənəti həm təsir, həm təşviq məlzəməsi edə bilmək, bununla bərabər, Qurandan ayrılmadan Haqq yolunda qalmaq, göründüyü kimi, asan məsələ deyil. Bu mənada müraciətin necə və hansı dəlillərlə ediləcəyi, haradan başlanılacağı və hansı sərhədlərin keçilməyəcəyi çox vacib məqam idi. Nəsimi bu baxımdan çox həssasdır, ən üsyankar halında belə, qaydalara riayət edir, xətləri pozmur. Amma bununla belə, yaratdığı yeni modelin tanınması və qəbul edilməsi üçün əxlaqi ölçüləri dəyişməkdən də imtina etmir. Bunlar hər dəfə elə də gözə batacaq ölçüdə və miqyasda olmasa da, müəyyən fikir qəliblərinin təkrarı, ayələrdəki məşhur kəlmələrin tələffüzü və yeni sözlər tandemində emitasiyası ilə zamanla qulaq üçün adiləşir, hətta əyani təfsirə çevrilir.

***Kim ki bildi bu "siratil müstəqim"in rahini,***
***Əhli-ürfan olduvü bildi yəqin Allahini.***

Quranda adı keçən " Siratil müstəqim" ifadəsi "doğru yol","Allaha aparan yol" kimi təfsir edilmişdir, bu isə Allahın əmrlərinə şərtsiz əməl etmək, özünü Ona təslim etmək deməkdir. Yəni, hər kim həyatını Allahın bəndədən istədiyi kimi yaşayarsa, Quranda buyurulan "doğru yol"u tapanlardan olar və Allahını bütün böyüklüyü və əzəməti ilə tanıyar. Buradakı "yol" Qurandan gələn söz olmaqla yanaşı, həm də dərində Nəsiminin öz tutduğu və insanları dəvət etdiyi "yol"dur. Bir insanın "Allahın "doğru yol"unu tapanların Allahı tanıya biləcəyini" qətiyyətlə soyləməsi onun bu "yol"u tanıdığına və getdiyinə bir işarədir. Quran ayəsinin sitat gətirilməsi zahirən də olsa insanları "Nəsiminin yolu"na dəvət üçün ən rahat təbliğat imkanıdır. Bu, "mən deyirəmsə, mən bilirəm" deməkdir. Başqa bir beytdə isə Nəsimi üstübağlı cənnət məsələsinə toxunur.

***Həq buyurmuş "ərzülillah aqibət lil-müttəqi",***
***Çün deyilsən müttəqi, mülk etmə ərzüllahini.***

Allah buyurur: "Biz bu axirət yurdunu yer üzündə təkəbbürlük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edərik. Ən gözəl aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir"(Qəsəs, ayə 83).

Sən pis əməllərdən çəkinən deyilsənsə, nəinki cənnəti düşünmə, hətta Allaha ibadət və itaət edilən yerlərə də ayaq basma. Yəni, axirəti düşünmək

bütün ibadətlərin əsasıdır. Burada şair "cənnət" mövzusunu hazır vəziyyətə gətirərək bədii modelin üçüncü bucağını təqdim edir. Nəsimi təfsiri çox lakonikdir: Allah istəyən deyilsənsə, Allaha aid yerdə yaşama. İnsanların, xüsusən böyük köçlərin yaşandığı orta əsrlərdə getdikləri ərazinin yaşam şərtlərini və qayda-qanunlarını öyrənməyi və riayət etməyi çox vacib idi, əks halda ordan uzaqlaşdırıla və hətta yağmalanıb öldürülə bilərdilər. Nəsimi bu şüurlara hakim nizamı xatırladaraq "hər hansı bir əmirin, valinin qadağalarını qəbul etməyib ərazisindən çıxdığın kimi, Allahın əmrlərinə etina etmirsənsə, onun da ərazisindən çıx" deyərək məntiqini işə salır.

Niyyət mütəşəkkil bir cəmiyyəti qurmaq olsa da, bu cəmiyyətin əxlaqi vərdişlərlə təchiz edilməsi daha ümdə şərt idi. Yeni vərdişlər üçünsə yeni nəfsi tərbiyə metodları, ya da köhnələrin zamana uyğun məntiqlə aşılanması gərəkirdi.

Nəsimi fəlsəfəsində "insan" özünü İlahi başlanğıc kimi tanımalı və yaradılışın sirrindən xəbərdar ola bilməlidir. Vücudunda bütün kainatı daşıdığını bilmək və Allahın insana verdiyi missiyanın aliliyini dərk etmək baxımından insan özündən başlamalıdır. Bununçün Allahın bəndəsinə hansı məqamı verdiyini görə bilməsi şərtdir:

***Çün "əhsəni-təqvim" idi, əqlim mana insan dedi,***
***Ol canların məhbubu gör, bil kim, nə insan olmuşam.***

Bu beyt Quranın "Tin" surəsinin dördüncü ayəsinə işarə ilə deyilib. Həmən ayədə "Biz insanı ən gözəl surətdə yaratdıq" buyurulur. Bu, o deməkdir ki, yaranmışlardan heç kim və heç nə gözəllikdə insandan üstün deyil. Burada "gözəllik" nisbi anlayışdır. İnsan ruhu, ağlı nəyi gözəl bilirsə, nəyə gözəl deyirsə, ondan söhbət gedir. Amma, eyni zamanda, Allah da xəlq etdiyi bu varlığın sıradan olmadığını, fərqli olduğunu vurğulayır. "Ən" kəlməsi insanın Allahın digər gözəl yaratdıqlarının içində hamısından üstün olduğuna işarədir. Buradan sual yaranır: Allah nəyi gözəl yaratmadı ki? Təbii ki Yaradan bütün yaratdıqlarını gözəl yaratdı, məsələ Yaradanın qüsursuzluğudur, bizim gözümüzün "gözəllik" bölgüsü Allahın "xaliq"liyinin kənarında deyil, içindədir. Nəsimi insanın "ən gözəl" olduğunu vurğulamaqla ilk növbədə onun "eybəcər" olan hər şeyə bu dünyada bulaşdığını demək istəyir. Bu həm bəndənin bu çirkdən təmizlənə biləcəyinə, həm yaradılışca çox üstün olduğuna, həm də daimi bir ümidin olduğuna inandırır və bəndədə "peşmançılıq" qədər də "iftixar" oyadır. İnsanın bu qədər "pak" və "gözəl" yaradılışı birbaşa Allahın qüdrətinin nümayişi olduğu üçün Nəsimi bir qədər də dərinə enir:

***Gənci-nihanın sirriyəm, həm "küntə kənz"in məzhəri,***
***Həm cövhərəm, həm cövhəri, həm cövhərə kan olmuşam.***

"Mən bir gizli xəzinə idim, görünmək, bilinmək istədim, bu səbəbdən aləmi yaratdım" hədisi-qüdsünə işarə ilə insanın Yaradanın qeybindən bir nişanə olması fikri Nəsimiyə qədər bədii ədəbiyyatın mövzusu olmamışdı. "Əsmail hüsna"nın insanda təcəlla etməsi, insanın öz Yaradanının sifətlərini daşıya bilməsi və ən əsas da insanın təbiətin bir parçası olduğu halda həm də Allahın bir zərrəsi olması ideyası Nəsimi şeiriyyatı ilə ən pik nöqtəsini yaşadı:

***"Küntə kənz" əsrarı məxfi qalmasın deyib fəqih,***
***Verdi uş adəm libasında sana can surətin...***
***Nəsimi "küntə kənz"in gövhəridir,***
***Hədisi lölöi-şəhvara bənzər.***

Nəsimiyə görə insan Yer üzündə Allahın yalnız xəlifəsi, ayəti, nişanı deyil, eyni zamanda, Allahın həqiqətinin daşıyıcısı və qərarvericisidir. Dünya zamanı bəndənin bu mərtəbəni anlayana və qəbul edənə qədər təhsil alması üçündür.

Obrazlı desək, dünya bir məktəbdir, burada imtahandan “əla” alan “ənəlhəq” statusuna, rütbəsinə çatır, arif olur.

***“Küntə kənz”in gövhərindən xərc edərsən arifə,***
***Ey bu gəncin nəqdi, hey-hey büləcəb viranəsən.***

Nəsimi düşüncəsində insan “ənəlhəq” mərtəbəsinə yalnız Allahın əxlaqına çatdıqda çata bilər. Bu isə yəqinin üç məqamına yetməklə mümkündür. İrfani mərtəbələr ayri-ayrılıqda müxtəlif məqam və mənzillərdən ibarətdir. Bu məqamlarda bir “nəfəs” durmaq, bu mənzillərdə bir “göz” yaşamaq gərəkir. Bunun üçün müəyyən rabitələr lazımdır. Rabitənin əsasını “yəqin”lik təşkil edir. “Yəqin”lik dəqiq bilgi, dəlil və sübutlarla əldə edilən mütləq doğru anlamına gəlir. Birincisi “elmül yəqin”dir. Yaradanla daimi rabitənin olduğunu bilən, hər zaman Onun hüzurunda olduğunu anlayan insan üçün bu “hüzur” halında etdiyi kəşflər “elmül yəqin”dir. Elmin gücü çatdığı qədər əldə edilən informasıyalar müəyyən bir məntiqə uyarsa, doğruluğu ağıl ilə təsdiqlənərsə bu “elmül yəqin”ə aid olar. Bunun üçün insan daim, kəsintisiz Allahın hüzurunda olduğunu bilməli, daim və kəsintisiz Allahın nəzarətində olduğunu anlamalıdır. Qurandakı “Allah sizə nəzarət edir” (Nisa, ayə 1), “Allah hər şeyə nəzarət edəndir” (Əhzab, ayə 52) ayələrini dərk edən hər insan bu rabitədən istifadə edib başqalarının bilmədiklərini bilə bilər, bəzi mətləblərə cavab tapa bilər. Rəbbinə bağlı ikən müxtəlif halların kəşfi də “elmül yəqin”dəndir.

“Eynəl yəqin” isə gözlə görmək, şahid olmaq anlamına gəlir. Quranda buna işarə edilir: “Xeyr! Kaş ki, yəqin biləydiniz”, “ Siz Cəhənnəmi mütləq görəcəksiniz!” (Təkasur, ayə 5-6).

***Eynəl-yəqin həq sirrinə idrak edən insan mənəm,***
***Ey mə’rifətdən bixəbər, insafa gəlgil, biriya.***

Əgər “elmül yəqin” bir axtarış dövrüdürsə, “eynəl yəqin” “vüsal” dövrünün başlanğıcı deməkdir.

***Oldu kəlamından yəqin, k’anın dəhanı var imiş,***
***Eynəl-yəqinin rö’yətin qeybü gümana verməzəm...***
***Nitqindən oldum çün diri, eynəl-yəqin oldu bu kim,***
***Lə’lindürür ol Isa kim, ağzın açar can axıdar.***

“Həqqəl yəqin” Allahın zatında ərimək, Allaha tam təslim olmaq, öz əxlaqını Allahın əxlaqı ilə eyni etmək deməkdir. Bu, bir bilginin, hadisənin batininə enmək, həqiqətinə çatmaq, bilgini yaşamaq, heç bir şübhəyə yer qoymadan işin doğrusunu bilməkdir.

***Gördüm səni gümansız hər dilbərin üzündə,***
***Həqqəl-yəqin görənə zənnü güman gərəkməz.***

“Həqqəl yəqin” qəlb ilə sezilib duyulan və bəsirətlə müşahidə olunub yaşanan bir bilgi mərtəbəsidir. Yəqinliyi bildirən mərtəbələrin ən üstünüdür. “Həqqəl yəqin”ə çatan insan mərifət əhli olur və “arif “ adlanır. Ariflərin qəlb gözü ilə görə bildiklərini sözlə ifadə etmək çox çətin və ya mümkünsüzdür. Quranda bu mərtəbəyə işarə edən ayələr vardır: “Şübhəsiz ki, bu, təkzibolunmaz həqiqətdir!” (Vaqiə, ayə 95); “Sözsüz ki, bu əsl həqiqətdir” (Haqqə, ayə 51).

Dünya və onda olanların zahirini deyil, məğzini, mahiyyətini görmək, yaradılış səbəblərini kəşf etmək, bu kainatın içində insanın öz məqamını, missiyasını dərk etməsi “həqqəl yəqin”dir. Buna qədər suallarının cavabını dünyəvi gözlə kənarda axtaran insan, bundan sonra cavabları özündə tapmağa başlayır, özünü tanımağa başlayır və bu prizmadan Yaradana və yaradılışa baxmağı kəşf edir. Əsl həqiqətləri tapır və heyran qalır. Burada

dünyanın dərki üçün silah olan “əql” “qəlb”in yanında tərksilah olur. Varlığın zahirində qalmış “əql” mahiyyətin fəhmində gərəksiz və dəyərsizdir. Və maraqlı məsələ budur ki, Nəsimi insanın “heyranliğini” “əqlsizliyə” yozmur, əksinə, əqlin heyran olması kimi izah edir. “İnsan” və “əql” eyni obraza çevrilir, “əql” qeyri-dünyəvi hər şeydən zövq almağa başlayır:

***Firqətin şol dərd imiş canımda kim, hər kimsə kim,***
***Fikrinə düşdü bu dərdin, əqli heyran oldu, gəl!***

Həmin “əql” ki Nəsimi onu “getdiyi hər yeri soyub talayan moğol”a bənzədir:

***Münəvvər əbhərin türkü evin yəğmaladı əqlin,***
***Moğol hər qanda varırsa düşər taracü yəğmayə.***

Yəni, soyğunçu moğol kimi dünyəvi ləzzətin qulu olmuş “əql”, açılan mənzərə qarşısında donub qalır, nə edəcəyini bilmir, etməli olduğu pisliyi unudur. “Əql” bütün təfərrüatı ilə təslim olur.

Nəsimi yaradıcılığında vacib mövzulardan biri də “nəfs” mövzusudur. Şair bu mövzuya da digərlərinə olduğu kimi dərindən və dəqiq yanaşır.

***Aşiqin əsrarını, həqqi bilən arif bilir,***
***Aşina halın nə bilsin nəfsini bilməz qərib.***

“Aşıqlərin sirrini məsələnin məğzini, mahiyyətini, əslini bilən arif bilir. Aşiq qəlbinə və eşq aləminə qərib olan, uzaq olan, öz nəfsini belə bilməyənlər dost halın necə bilə bilər.”

Nəfs insanın rütbəsini təyin edən əsas meyardır. Nəfs olmasaydı, insan “insan” rütbəsində deyil, “mələk” rütbəsində olardı. Halbuki kamil bir insan rütbə və dəyər etibarilə mələkdən daha üstündür.

***Hüsnünə heyrandurur hurü mələk,***
***Eşqinə sərgəştədir daim fələk.***

Yaradan “insan”ı xəlq edəndən sonra bütün mələkləri bir yerə yığaraq onlara insana səcdə etməyi əmr etmiş, şeytan kibr və qisqanclıqdan bu əmrə itaətdən imtina etmiş və dərgahdan qovulmuşdur.

***Endirmədi baş əhsəni-təqvimə əzazil,***
***Anı buraxan lə’nətə, anın cədəlidir...***
***Sirri-tövhidə irmədi münkir,***
***Adəmə səcdə qılmadı şeytan.***

“Nəfs” insan üçün bir pərdədir. O, bu pərdəni aradan qaldırmaqla Allaha qovuşa bilər. Şeytanın cəhdi isə bu pərdənin Qiyamətə qədər qalması və insanın “səcdəyə layiq” olmadığının sübut edilməsidir.

***Nəfsini hər kimsə bildi, həqqi bildi bigüman,***
***Zərxəridə qul isə, aləmlərə sultan olur.***

Bu pərdənin arxasında qalıb dünyaya aldananlar dünyaya sultan gəlib nəfslərinə qul, şeytana alət olanlardır. Şeytana uymayıb, dünyaya aldanmayıb, “nəfs” pərdəsini yırtıb həqiqət mərtəbəsinə ucalanlar isə Yaradana əsl bəndə, kainata isə sultan oldular.” “Nəfsini bilmək” -- onu ram etmək, nəzarətdə saxlamaq deməkdir. Bir vəhşini əhliləşdirmək üçün onun yaşam arealını, vərdişlərini bilmək lazımdır. “Nəfsin” də belə cəhətləri var. Dağıdan, öldürən, məhv edən “nəfs” qorxuluların ən zəifidir. Doğruları söylədiyini iddia edən, kütləri yolundan azdıran, məsum və ədalətpərəst, məzlum və həqpərəst görünən “nəfs” daha təhlükəlidir.

***Sufiyi-pəşminəpuşun batini safi degil,***
***Ol qaçan qurtarəsərdir nəfsini əmmarədən?***

“Nəfs” yeddi mərtəbədən ibarətdir. Müxtəlif mənbələr bu mərtəbələri müxtəlif ardıcıllıq və dəyişkənliklə ifadə etmişlər. Ən çox yayılan və qəbul olunan isə bunlardır:

1. Nəfsi-əmmarə -- Əmr edən nəfs. Pislikləri törətməyi əmr edən, insanı Yaradana qarşı qoyan və şeytana kölə olan nəfs. Dünyaya gələn hər insan “nəfs”dir, “məsumiyyət” yaş həddindən sonrakı həyatının ümumi adı “nəfsi-natiqə”dir. “Nəfsi-əmmarə” insanın pis vərdiş və istəklərlə yetışdiyi bir məqamdır. İnsan şeytanla üz-üzə qalandan sonra alacağı qərarlar etibarilə özünə müəyyən bir “məqam” əldə edir. Bu mənada mənfi olan təkcə bir məqam var, o da “nəfsi-əmmarə”.

2. Nəfsi-ləvvamə -- Pislik edəndən sonra peşiman olan, səhvini, xətasını anlayan nəfsdir. Ariflərin nəzərinə görə bu məqama ibadətlə çatmaq qeyri-mümkündür. İbadətin yanında əməl olmazsa, peşimanlıq vərdişə çevrilər və “günah” sikli bitməz.

3. Nəfsi-mülhimə -- Allahdan ilham alan nəfs. Allah xatirinə yaşayan və hər zaman onu xatırladan nəfsə deyilir.

4. Nəfsi-mütməinnə -- Tamamlanmış, doymuş nəfs. Təsəvvüfə görə bu mərtəbədə nəfs bütün şübhələrdən arınır, təmizlənir, dərk etmədiyi nemətlərin fərqinə varır, onlarla doyur.

5. Nəfsi-raziyyə -- Razı qalmış nəfs. Hansı mərtəbədə olduğunu və Yaradanın ona münasıbətini bilən və Allahdan tam razı qalan nəfs.

6. Nəfsi-mərziyyə -- Razılığ almış nəfs. Allahın da bəndəsindən razı qaldığı məqamdır.

7. Nəfsi-kamilə -- Kamil nəfs. Yetə biləcəyi son nöqtəyə yetmiş, Yaradanın hüzuruna çıxa bilən pak, ali nəfsdir.

Nəsimi sufiləri “öz yaratdıqlarının əsiri olmaqla” qınayır. Müxtəlif “məqam” və “mənzil”lər icad edərək əsl həqiqətdən uzaq düşdüklərini, həqiqəti başqa yerdə axtardıqlarına işarə edir. Halbuki həqiqətin bilinən yerdə və bilinən insanlarda olduğu göz qabağındadır:

***Nəfsini biləndir ki, yəqin rəbbini bildi,***
***Həqdən bu məqamata irən bil ki, vəlidir.***
***Nəfsini bilən bil ki, həqi bildi həqiqət,***
***İnkarına bel bağlama kim, qövli-Əlidir.***

“Özünü tanıyan, nəfsini bilən Rəbbini də tanıyar, bilər. Bu məqama çatan insan Allahın dostu, insanlığın nümunəsi olar. Bu, Əlinin (İmam Əli ibn Əbutalib) sözüdür, inkarının mümkünlüyünə inanma. İmam Əli nəfsini bilib həqiqəti tanıyandır, onu inkar etmək Haqqı inkar etməkdir.” Burada Nəsimi İmam Əlinin mütləq həqiqət sahibi olduğunu və sözünə də qeyd-şərtsiz etimad edilməli olduğunu vurğulayır. Həzrət Məhəmmədin İmam Əli haqqında buyurduğu “Əli Haqdır və Haq Əli ilədir” məlum hədisinə işarə edən şair “özünü tanıma”nın və “haqqa qovuşma”nın dünyada nümunələri olduğunu qeyd edir. Başqa bir qəzəlində Nəsimi İmam Əlini daha bir məqamda tanıdır:

***Çün əmirəlmöminin “mən nöqteyi-bayəm” dedi,***
***Kim ki hərfin sirrini bilməz, nə bilsin şahini.***

“Möminlərin əmiri “mən ba hərfinin nöqtəsiyəm” dedi, bir hərfin sirrini bilməyənlər şahı necə tanıya bilər?”

Əmirəlmöminin İmam Əlidir. Müxtəlif mənbələrdə onun “ba” hərfi və nöqtəsi ilə bağlı rəvayətlər vardır. Şeyx Süleyman Qunduzi "əl-Dürrül-münəzzəm" əsərinə istinadən yazır: "Bil ki bütün səmavi kitabların sirri Qurandadır. Quranda olanların hamısı Fatihədədir. Fatihədə olanların hamısı "bismillah"dadır. "Bismillah"da olanların hamısı onun "ba" hərfindədir. "Bismillah"ın "ba"sındakı hər şey isə onun altındakı nöqtədədir. İmam Əli də buyurub: "Mən "ba"nın altındakı nöqtəyəm" (Şeyx Süleyman Qunduzi. Əl-Yənabiül-məvəddə, 1-ci cild, səh. 213).

Başqa bir rəvayət: Bir gecə İmam Əli mahir Quran bilicisi Abdullah ibn Abbası qəbiristanlığa apardı və Qurandan bir ayə oxumasını istədi. İbn Abbas "Bismillahir Rəhmanir Rəhim" ayəsini oxudu. Sonra İmam Əli "Bismillah"ın əvvəlindəki "ba" hərfinin mənasını sübh açılıncaya kimi təfsir etdi (Ayətullah Reyşəhri. Movsuətül-İmam Əli ibn Əbitalib, 10-cu cild, səh. 55).

Bir sözdən bir hərfi götürməklə sözün, nəticədə isə cümlənin, son nəticədə isə fikrin mənası dəyişə bilər. Xüsusən də ərəb qrafikasında hərflər qədər nöqtələrin də əhəmiyyəti var, belə ki bir nöqtənin artması və azalması sözü tam dəyişə bilər. Quran “ba” hərfi ilə başlayır və bu hərf digər hərflərdən nöqtəsi ilə fərqlənir. Əgər bu nöqtə olmasa, "ba" hərfi tanınmaz və heç bir məna daşımaz. Şərq fəlsəfəsində, hürufilikdə də həmçinin nöqtə dərin fəlsəfi mənaya malikdir. Çünki bütün formalar, yazılar nöqtədən başlayır və nöqtələrdən təşkil olunur. Nöqtə eyni zamanda təsəvvüfdə elmin simvoludur. Həzrət Əlinin “ Elm bir nöqtə idi, cahillər onu çoxaltdı” kəlamı Şərqdə yayılmış məşhur kəlamlardandır. Bəzi alimlər bu hədisin İmam Əliyə aid olmadığını və əsassız olduğunu iddia edirlər. Dəlil gətirirlər ki, Quranda “Biz onun elmini artırdıq” ayəsinə ziddir. Hədisi anlaya bilmədiklərinə səbəb “ cahilllər onu çoxaltdı” ibarəsini səhv izah etmələridir. Cahillər elmi çoxalda bilməz, cahillərin elmlə işi olmaz. Cəhalətə son vermək istəyən alimlər elmi genişləndirərlər. Hər mətləb şərh edildikcə elm qat-qat böyüyər və bu zaman onun içinə biruzə vermədən bəşərə əks fikirlər də elm adı ilə daxil edilər. Başqa cür desək, elmin çoxalmasına cəhalət səbəb olar.

Şah obrazı burada o dövrün sufilərinin təbirincə “şeyx” və ya “vəli”(mövla) kimi işlənib və Allahın vəlisi, möminlərin mövlası İmam Əli nəzərdə tutulub. Şahi-Mərdan, Şahi-Nəcəf, Şahi-Vilayət adları da İmam Əliyə aiddir. Qeyd edək ki, bir çox sufi mürşidləri də bu rütbəni adlarında daşıyıblar: Şah Abdullah Dəhləvi, Şah Məhəmməd Nəqşibənd və b.

Hürufiliyə görə vücudi-Mütləq olan Allah özünü göstərmək istəsə, söz şəklin alar və hərflər vasitəsilə zahirə çıxar. Çünki yaranışın zühuru səslə olmuşdur və səs qeyb aləmindən eyn aləminə gələn hər varlıqda mövcuddur. Lakin səs canlılarda hərəkət ilə, cansızlarda isə qüvvə ilə ortaya çıxar. İki cansız əşyadan səs almaq üçün onları bir-birinə vurmaq lazımdır, bu zaman əşyanın cövhəri olan səs eşidilmiş olar. Canlılarda isə səs iradə və ixtiyarla zahir olar. Səsin ən kamil forması sözdür ki, bu da ancaq insanlara bəxş edilib. Söz hərflərdən əmələ gəlir və məlum olur ki, səsin də əsli hərfdir. Nəsimi demək istəyir ki, bir hərfi dərk etməkdə aciz olanların şahlıq kimi ən üstün vəzifəni icra edən bir şəxsi tanıması mümkün deyil. İnsan elmin nuru ilə yolunu işıqlandırmasa, bu yolda öz rəhbərini (yol göstərən) seçə bilməz. Rəhbəri tanımadan hara getdiyini bilməyəcəksən. Bir hərfin nöqtəsinin kiçikliyinə xor baxma, onu əhəmiyyətsiz hesab etmə, çox böyük həqiqətlərin sirrinin açarı kiçik zərrələrdə gizlənib, onları əhəmiyyətsiz hesab edənlər sirrlərə vaqif ola bilməz.

Şair iman əhlinin də hələ istənilən nöqtədə olmadığından söz açır:

***Vaqif olmaz sirri-lövhidə ol iman əhli kim,***
***Edə bilməz nəfsini dünya həvasından übur.***

“Lövhi-məhfuz” olmuş və olacaqların, zamanın bütün anlarının, məkandakı bütün varlıqların yazılı halda hifz olunduğu lövhədir, kainatın proqramı, yaradılışın qeydiyyatıdır. “Lövhi-məhfuz”un dünyadakı nümunəsi insan hafizəsidir. İnsanın yaşadığı, gördüyü, eşitdiyi hər şey yaddaşında qaldığı kimi, kainatda baş vermiş və baş verəcək hər şey “lövhi-məhfuz”da qalacaq. Yazılı olduğuna görə “lövhi-məhfuz”un “unutmaq” imkanı yoxdur.

Yaddaş kimliyimizin tarixi, zəkamızın xəzinəsi, təfəkkürümüzün mənbəyi, təcrübələrimizin mərkəzidir. Ruhumuzun ən qiymətli cihazı, insan olaraq yüksəlişimizin əsasıdır. İnsan təcrübəsi üzərində düşünən, müqayisə edən, nəticə çıxaran varlıq olduğuna görə yaddaşsız "insan" ola bilməzdi. Yaddaşın həm də insanın əbədi həyatında müstəsna rolu var. Hafizə "qiyamət günü" üçün dəlil, sübut, sənəddir. Axirət hesabatında səvab-günaha şahidlik edəcək mənbədir.

Nəfsini dünya havasından qorumayan, dünya həvəsinin maneələri arasından kecirə bilməyənlər iman əhli də olsa, ibadət və itaətlərində könüllü və dəqiq olsalar belə "lövhi-məhfuz"un sirrindən xəbərdar ola bilməzlər. İnsan olaraq nə dəyər və qədrdə bir həqiqəti daşıdıqlarını bilməzlər. Dünyada hər aldıqları nəfəsin, hər sözün, hər əməlin nə ağırlıqda olduğunu dərk etməzlər.

***"Ma-ərəfna" hökmilə öz nəfsini gər bilməsən,***
***Həq bilir səndən ayırmaz kimsə heyvan surətin.***

"Ma ərəfna" Həzrət Məhəmmədin məşhur "Ey bütün məxluqat tərəfindən bilinən Rəbbim, Səni bilinməsi gərəkən qədər bilib tanımadıq" hədisinə işarədir. Burada Peyğəmbər insan dərkinin və təfəkkürünün Allahı tam əhatə edə bilməyəcəyini ifadə edir. İnsan bütün qüdrətindən istifadə etsə belə Yaradanı yalnız bir miqdar tanıya bilər. Bu miqdarın tamlığı barədə bir məlumat yoxdur, çünki insan düşüncəsinin xaricində olan bir şey idrakın da xaricindədir. Amma "tanıya bildiyi qədər tanımaq" imkanından istifadə etməmək insanı heyvandan ayıran şüurun, dərrakənin paslanmasına gətirib çıxarar. Bu isə insan və heyvan fərqinin aradan qalxması deməkdir. Yeri gəlmişkən bəzi alimlər İmam Əlinin "Qeyb pərdəsi açılsa, yəqinim artmaz" hədisini Peyğəmbərin bu hədisi ilə üzüzə gətirib uyuşmadığını irəli sürürlər. Qeyd edək ki, İmam Əli "Mən Allahı tam dərk edirəm, təfəkkürüm Onu tam əhatə edir" demir. O da Peyğəmbərin buyurduğu ölçülərdən kənara çıxmır. İmam Əlinin bu hədisini belə şərh etmək olar: "İnsan Allahı nə qədər tanıya bilərsə, o qədər tanıyıram, qeyb haqqında bildiklərimlə görəcəklərim ona görə fərqlənməz ki, görəcəklərim də dərk edə bildiyim qədər olacaq". Ümumiyyətlə, Nəsimi əsərlərində İslam müqəddəslərinə çox böyük ehtiramla yanaşır, onların kəlamlarına əsaslanır, fikirlərini onların hədisləri ilə möhkəmləndirir. Diqqət edilməsi vacib məqamlardan biri də budur ki, Nəsimi digər peyğəmbər və övliyalarla özünü müqayisə edir, özünü onlara bənzədir:

***Hüsn içində Yusifi-Kən'ana təhsin etməzəm,***
***Onların dövranı keçdi, gəldi dövran sizlərə...***
***Gah çıxmışam İsa kimi çərx üstündə oturmuşam,***
***Gah varmışam Yusif kimi Misrdə sultan olmuşam...***
***Şövqən tərani sirrini mən söyləyəydim, neyləyim,***
***Məhrəm bu Turin sirinə Musa ibn Imran gərək...***
***Xızr əgər zülmata vardı, istədi abi-həyat,***
***Mən dodağın çeşməsində abi-heyvan bulmuşam.***

Lakin, Nəsimi heç vaxt özünü Həzrət Məhəmməd və əhli-beyti ilə müqayisə etməmiş, onların ehtiramını gözləmişdir.

"Heyvan surəti almaq" məsələsi fərqli təfsir və mülahizələrin mövzusu olan mübahisəli məsələlərdəndir. Nəsimi başqa qəzəllərində də bu məqama toxunur:

***Boyundur sidrəvü tuba, dodağın abi-heyvandır,***
***Anın mahiyyəti-zövqün nə bilsin ol ki, heyvandır.***

Allahın qeybindən söz açıb ruhlara nicat verənləri əxlaqdan, təfəkkürdən məhrum olanlar necə anlaya bilər? Bu məna zövqünü surət kölələri necə yaşaya bilər? İslam Peyğəmbərini vəsf etdiyi bir qəzəlində :

***Nedər aşiq cahanü canı sənsiz,***
***Ki sənsən aşiqin canü cahanı.***
***Ləbindir çeşmeyi-heyvan, vəli şükr***
***Ki hər heyvantəbiət bilməz anı.***

“Sənsiz aşıqə cahan da, can da lazım deyil. Çünki, aşıqin cahanı və canı sənsən. Sənin dodaqların dirilik çeşməsidir, həyat mənbəyidir. Şükr ki hər heyvantəbiət (şüursuz insan) bunu bilməz.”

Quranda bu barədə aydın ayə var: “Biz cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.(Əraf, ayə 179). Nəsimi də bu ayəni anaraq “şükr edir”.

Həzrət Məhəmməd bir hədisdə :“İnsanlar qiyamətdə elə surətdə məhşur olub gələcəklər ki, meymun və donuz surətləri onlardan qat-qat yaxşıdır” buyurur. Qiyamətdə alacaqları bu şəkil onların dünyadakı mənəvi yaşantılarına tutulmuş güzgü olacaq. Təsadüfi deyil ki “Tin” surəsinin insanı ucaldan “Biz insanı ən gözəl surətdə yaratdıq” ayəsindən sonrakı ayədə Allah insanın enəcəyi ən alçaq nöqtəni də göstərir: “Sonra isə onu aşağı qatların ən aşağısına qaxacağıq”.

Təbii ki Yaradan əsl bəndələrini, əxlaq və mərifət sahiblərini də unutmur: “İman gətirib xeyirxah işlər görənlər istisna olmaqla! Onlar üçün tükənməz mükafat hazırlanmışdır”.

“İnsan” olmaq, həm də Nəsiminin görmək istədiyi “insan” olmaq məlum məsələdir ki, asan deyil. Amma Allahın insana bəxş etdiyi bu uca məqama yetişmək üçün daim cəhd etmək lazımdır. İnsanlıq şərafətinə çatmaq üçün bir çox istəklərdən keçmək, bir çox bəlalara sinə gərmək gərəkir. Böyük mükafatı almaq istəyənlər böyük bədəllər ödəməlidir. Allah dünyanı imtahan məkanı olaraq yaratmışdır: “Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır” (Mülk, ayə 2).

**OXUCULARIN NƏZƏRİNƏ!**
**2020-ci İL ÜÇÜN**
**“AZƏRBAYCAN”**
**jurnalına abunə yazılışı davam edir.**
**“AZƏRBAYCAN”**
**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik, illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**